# NURUN VİDASI

**(İslam Peyğəmbəri haqqında traktat)**

**NAMİQ BABAXANOV**

Ali Əbanın həyatının ən həssas məqamına toxunan “Beş kimsənin sorağında” Peyğəmbərimizdən söz açacağıq, çünki qiyamətədək olacaq bəşər tarixinin ən üstün şəxsi haqqındı fikir bildirmək hər nə qədər çətin olsa da, bir zərurətdir, onu olduğu kimi tanıtmaqdan ötrü yararan bir zərurət. Muhəmməd peyğəmbər elə bir şəxsiyyət olub ki, bir yazıda onu tanıtdırmaq çox çətindir, hətta deyərdim ki, qeyri-mümkündür. 63 illik ömrün cəmi son 23 ili peyğəmbərlik missiyasına aid olsa da o çox zəngin, bərəkətli və uğurlu bir həyat sürmüşdür. Bütün bu sadaladıqlarımız arasında nəinki adi insanlar, hətta peyğəmbərlər arasında da bənzəri yoxdur. O, 124 min peyğəmbər içərisində öz ilahi missiyasına tam həyata keçirə bilən tək peyğəmbərdir. Onun gətirdiyi dini dəyərlərlə daban-dabana zidd həyat sürən Hicaz toplumu cəmi 23 ildən sonra bu Tohid carçısının dinini tam olaraq qəbul etmişdi. Hicri 6-ci ildə Rizvan beyəti və ardınca Hüdeybiyyə sülhü, 7-ci ildə ilk Məkkə - Ömrə səfəri, 8-ci ildə Məkkənin fəthi, elə həmin ildə Həcc mərasimində, Minada Əli bin Əbutalibin “Bəraət” (Tövbə) surəsinin ilk 13 ayəsini oxumasından yəni, “Bəraətül-müşrikin” mərasimindən sonra, qısa bir zamanda artıq bütün Hicaz Tohid bayraqdarı oldu. İslam peyğəmbəri öz qızını diri-diri torpağa tapşıran daş ürəkli insanlardan mehriban ata, qəbiləsinin şərəfi üçün vuruşanlardan Allah yolunda canından keçən mücahid, cansız bütlərə səcdə edənlərdən ilahi övliyalar yetişdirə bilmişdi. Ən əsası isə o qiyamət gününə qədər yaşayacaq yeganə haqq yol olan Tohid dinini tam olaraq cəmiyyətdə bərpa etməyi bacarmışdı. Artıq insanlar üçün əbədi olaraq haqq, səadət qapısı daim açıq qalacaqdı. Allahın Yer üzünün ən, qəddar, fasiq, cani, facir, vəhşi, zalım, günahkar insanları arasına göndərdiyi İslam dini bu toplumda ayaq tuta bildisə, demək dünyanın digər bölgələrini də fəth edə biləcəkdi, çünki o dönəmdə dünyanın ən pisləri Hicazda məskunlaşmışdı. Bu ilahi məntiqlə İslam dinin Hicaza gəlməsi əslində onun cahanşümulluğuna bir sübut idi, əlbəttə bunu sübut etmək üçün Peyğəmbərə 23 il lazım oldu. Şübhə yoxdur ki, belə bir şəxsiyyətin həyatını tam olaraq qələmə almaq qeyri-mümkündür. Bu barədə müsəlman və qeyri müsəlmanlar arasında Peyğəmbər haqqında kifayət qədər dəyərli əsərlər də, mövcuddur. Biz bu bəhslərimizdə Peyğəmbərin ömrünün sonu və vəfatı ilə bağlı oxuyub - öyrəndiklərimizi Allahın izniylə qələmə almaq, mövcud tarixi faktları araşdırıb, qısa təhlil etmək niyyətindəyik. Peyğəmbərin vəfatı haqqında araşdırma və təhlilləri Peyğəmbərin Nəcran məsihiləriylə olan Mübahilə hadisəsindən sonrakı tarixdən, daha dəqiq o Həzrətin ömrünün ilk və son Həcc mərasimi olan “Hiccətül-vida”dan başlamaq lazımdır. Yalnız o tarixdən başlayaraq aparılan araşdırma və təhlil insanlardan olan bu ilahi Nurun vidasını tam olmasa da, qismən dəyərləndirməyə imkan verər. “Hiccətül-vida”, “Qədir-Xum” və “Mübahilə” hadisələri təqribən Peyğəmbərin ömrünün sonlarında baş verən ən mühüm və yadda qalan tarixi hadisələrdir.

**Səfər ayının son on günü**

haqqında qısa izah verməkk lazımdır, mövzumuza başlamazdan öncə bu haqqda qeydlər aparmaq, əslində bir şübhəyə də cavab olar. Adətən belədir ki, "Məhərrəmlik" deyəndə zehnlərdə əzadarlıq canlanır, insanların bu müddətdə yas saxlaması, şənlik etməməsi əza sahiblərinə olan ehtiram və məhəbbətlərindən irəli gəlir. "Məhərrəmlik" adı konkret olaraq Hicri Qəməri təqviminin ilk ayından Məhərrəmdən götürülsə də, hamı bilir ki, əzadarlıq iki ay - Məhərrəm və Səfər aylarına aid edilir. Şəriətdə Məhərrəm ayı haram - cihad etmək üçün qadağan edilən aylardandır, Səfər ayı ürfdə "ağır ay" kimi tanınır. İmam Hüseyn və Kərbəla şəhidlərinin yas və əza mərasimləri "Ərbəin"lə bitir. Səfər ayının 20-ci günü Kərbəla şəhidlərinin qırx mərasimi - Ərbəin əslində Aşura qəhrəmanlarının Məhərrəmlikdə ki, son əza mərasimi olur. Bununla da Məhərrəmin birinci günündən 50 gün keçir. Amma biz yaxşı bilirik ki, Səfər ayının sonuna qədər - yəni Ərbəindən sonra da əzadarlıqlar daha 10 gün Səfərin sonuna qədər davam edir. Hətta Əhlibeyt tərəfdarı olan müsəlmanlar dünyanın harasında olurlarsa olsunlar, tarixən Səfər ayının son 10 gününü əzadarlıqla qeyd edirlər. Məsələn Azərbaycanda hətta dinsiz sovetlər döneminin ən qızğın vaxtlarında belə məscidlər on gün Məhərrəmin əvvəlində və on gün də Səfərin sonunda əzadarlığa açıq olardı. Məsələ burasındadır ki, Ərbəindən sonrakı günlər, Səfər ayının son on gününü müsəlmanlar İslam Peyğəmbərinə əza saxlayırlar və bu artıq həm bir tarix, həm mədəniyyət, həmdə dinin tövsiyyəsidir. Peyğəmbəri Əkrəm Hicri Qəməri 11-ci il Səfər ayının 21-dən xəstə yatağına düşüb və 28-də bü dünyadan köçüb. Əslində bu əzadarlıq özü "İmam Hüseynə əza saxlayıb, Peyğəmbərə əza saxlamırlar" iddihamlarına möhkəm cavabdır. Əhlibeyt matəmini tutan müsəlmanlar Peyğəmbər yatağa düşən gündən, o Həzrətin ölümünün üçüncü gününə, dəfn olunduğu günə - Səfərin son gnününə qədər əza saxlayırlar, bu Peyğəmbərin vəfatından bu günə qədər belə olub. Əlbəttə ilk il (Hicri 11 ci il) bütövlükdə hüzn ili kimi yadda qalıb, ondan sonrakı illərdə bu belə davam edib, günümüzə çatıb və günümüzdən də inşallah Qiyamətə qədər belə olacaq. Xülasə Səfər ayının ağır ay olması, insanların bu ayın son on günündə də əzadarlıq edib, toy və şənlik etməməsinin səbəbi Peyğəmbərin vəfatıdır. Əlbəttə Səfər ayının 28-ci günü İmam Həsən bin Əlinin də şəhadət günüdür, illər sonra o da babası Peyğəmbər dünyadan köçən gün şəhadətə çatdı. Səfər ayının son günü də sonralar İmam Rzanın şəhadət günü kimi tarixə düşdü. Amma qeyd etdiyimiz kimi bu son on gün əvvəldən əsasən İslam Peyğəmbərinin vəfatı günü kimi əza saxlanılıb. Bütün bu şəhadət və mövlud mərasimləri əslində Peyğəmbər və onun Əhli-beytinə olan əqidənin əməli təzahürüdür. Sözsüzdür ki, etiqadın əməli tərəflərindən biri əqidə bağladığın

şəxsiyyətlərin şad günlərində sevincli olmaq , qəmli günlərində əza saxlamaqla bəyan olur.

**İslam Peyğəmbərinin əzası**

10 gün, İmam Hüseynin əzası isə 50 gün davam etməsi, bu Kərbəla şəhidlərinin getdiyi o ilahi yolun məqamları ilə əlaqəlidir, onların hədəfi bu əzadarlıqla yaşayır. Yezidin ört-basdır etmək istədiyi Kərbəla müsibətinin yayılması və tanınmasının yolu əzadarlıqdır. Belə də ki, Kərbəla şəhidlərinə yas tutmaq elə Peyğəmbərə ehtiramın davamıdır. Peyğəmbərin gətirdiyi İslamın təhlükədə olduğu bir vaxtda İmam Hüseyn başda olmaqla Kərbəla şəhidləri Aşura günü canlarından keçdilər və dini qorudular. Aşura şəhidlərinə əzadarlıq təkcə göz yaşı töküb, ağlamaqla müsibəti anmaq deyil, bu göz yaşları və əzadarlıq İmam Hüseyn qiyamına həyat verir, əslində elə Peyğəmbərin dinini yaşadır. İmam Hüseyn əzadarlığı ilə onun qoyduğu məktəb yaşayır, bu məktəb isə elə Quranın və Peyğəmbər yolunun özüdür. Bu əzadarlıqla - Aşura günü baş verən müsibətə əza saxlamaqla, hadisənin faciəsini anmaqla Kərbəla hadisəsi xatırlanır, yaşayır, nəsildən nəslə keçir və bu da qiyamətədək davam edəcək. Hə bunu da qeyd edək ki, bəlkə də Peyğəmbərin vəfatından sonra Fatimeyi Zəhranın o Həzrətin vəfatına, unudulan Qədir-Xum hadisəsinə, tapdalanan Əli və imamət məktəbinin haqqına etdiyi etiraz, verdiyi təpki, axıtdığı göz yaşları müsəlmanlar tərəfindən layiqincə dərk olunsaydı, sonrakı hadisələr tamamilə başqa rəng alardı, din təhlükəyə düşməzdi və heç Kərbəla da baş verməzdi. Amma əfsus ki, bu belə olmadı, Peyğəmbərin ehtiyatlandığı hadisə oldu - Qədir-Xum hadisəsi dərk olunmadan tərk onundu. İmam Hüseyn hərəkatı isə yaşadı, çünki Əli və Fatimə balası Xanım Zeynəbin İmam Hüseyn və digər Kərbəla şəhidlərinə saxladığı əzası və axıtdığı göz yaşı müsəlman aləmini silkələdi, ümmət dəstəklədi və bu ilahi hərəkat bu günə qədər əzadarlıqla yaşadı, qiyamətə qədər də yaşayacaq. Əlbəttə bu artıq başqa mövzudur, bu barədə İmam Hüseyn və Fatimeyi Zəhra haqqında olan yazılarımızda ("İmam yolu" və "Günəşin usanması"nda) geniş söz açmışıq. Qısa olaraq deyək ki, bəşər tarixinin ən qanlı faciəsi olaraq tarixə düşən Kərbəla müsibəti çox geniş şəkildə qeyd edilməyə layiqdir, məhz bununla Peyğəmbərin dini diri qaldı, İmam Hüseyni qətlə yetirməklə əməvilərin dindən, Peyğəmbərdən nə qədər uzaq olduqları hətta düşmən olduqları tam olaraq üzə çıxdı. Odur ki, İmam Hüseyni yad etmək, İslamı, Quranı, Peyğəmbəri yad etmək və əhdi-peymanı təzələməkdir.

**Tohid dini təhlükədə**

olanda necə rəftar edilməsi haqqında gərək ki, ayrıca araşdırma ola. Amma fakt budur ki, Adəm övladlarına gələn bu dinin İslama qədərki şəriətləri və ya səmavi dinlər təhrifə məruz qalmışdı. İslamda isə bu baş vermədi, hərçənd ki, çox ciddi təhlükələr oldu. İslam Peyğəmbəri zamanında buna misal olaraq Hicrətin baş tutmasını və ya müsəlmanların "Əhzab" ("Xəndək") savaşındakı qələbəsini göstərə bilərik ki, hər iki hadisədə İslam dini qorundu, yox olmadan xilas oldu. Onlardan sonra İslam dinin aradan getməsi ilə bağlı ilk təhlükə çox təəssüf ki, elə İslam Peyğəmbərinin vəfatı ərərəfsində baş verdi, ilk dəfə Fatimeyi Zəhra mübarizəsiylə bu işin qarşısında durdu. Çox təəssüf ki, sonralar da belə hallar baş vermişdi. Məsələn, Müaviyənin məkirli planını İmam Həsən sülhə razılaşmaqla puç etdi, Aşura günü Kərbəla hadisəsində İmam Hüseynin qurban getməsiylə Yezidin İslamı məhv etmə planı heç oldu. Abbasi Xəlifəsi Mənsur məzhəbçiliyin bünövrəsini qoymaqla buna addım atdı, İmam Sadiqin elm və maaraiflə buna mane oldu. Xəlifə Məmun İmam Rzaya qurduğu oyunla əsl İslamın kökün kəsmək istədi, İmam Rza "vəli-əhd" olmağı qəbul etməklə bu oyunu pozdu. Nəhayət sonuncu Hüccəti qətlə yetirməklə İslama son vermək istəyən Abbasi xilafəti, zühurun başlanması ilə istəyinə çata bilmədi. Araşdırmalara görə bu sadalanan və sadalanmayan digər tarixlərdə İslam dini tamamən məhv olmaqla ciddi şəkildə qarşı-qarşıya galmışdi. Əslində İslam tarixinin 250-300 illik ilk dövrlərində belə hadisələrə hardasa çox rast gəlinir, saysız cəhdlər olub, belə cəhdlər indi də davam edir. Sadaladığım zamanlarda isə İslam dini ciddi məhv olma və aradan getmə təhlükəsi ilə qarşılaşmışdı. Əlbəttə Peyğəmbərdən sonra Tohid düşmənlərinin İslamı aradan aparma planları tamamən dinin adının silinməsi istiqamətində deyildi, dinin yönünü dəyişmək və haqqdan sapdırmaq məqsədliydi. Çünki bu adamlar özləri də zahirən İslamda idilər sadəcə dinin canlı olmasını aradan aparmaq, xilafəti səltənətə, İslamı şəxsi mənfəətlərə çevirmək məqsədi güdürdü, əslində bu elə özü də təhrifdir və dini məhv etməkdir. Dini yanlış məqsədlərlə istifadə etmək belə dinin dəyişdirilməsi deməkdir. Lazımı məqamlarda məsumların fədakarlıqları, ilahi missiyalarını həyata keçirmələri, bu günə qədər İslam dininin diri qalmasına gətirib çıxardı. Vəilla digər qalan səmavi dinlər kimi İslamın da quru bir adı qalardı və heç kəsi mənəvi bataqlıqdan çıxarıb, əbədi səadətə çatdırmaq gücü olmazdı. Amma Əlhəmdulillah bu baş vermədi, incildi amma üzülmədi, çünki Allahın hüccətləri Peyğəmbər və onun pak Əhli-beyti vardır.

**Ciddi təhlükə məqamları**

qeyd etdiyimiz kimi ən azı yuxarıda sadalanan tarixlərdə bir neçə dəfə olub, ümumiyytələ isə məsumların Peyğəmbərdən sonrakı ilahi missiyası dini qorumaq və ümmətə hamilik etməkdir. Onlar ömürlərini buna həsr ediblər. Fatimeyi Zəhra bu işdə öncül oldu. İmam Əli Peyğəmbərdən sonra dəfələrlə belə hallarla qarşılaşdı və xəlifələrin yanında durub səbrlə istiqamət verməklə, daha sonra xəlifəliyi ilə, İmam Həsən Müaviyəylə sülh bağlamaqla, İmam Hüseyn Aşura günündəki Kərbəlasıyla, İmam Zeynəl-abidin dua mədəniyyəti ilə, İmam Baqir və İmam Sadiq elm və maariflə, İmam Kazim məhbus həyatıyla, İmam Rza Məmuna vəli-əhd olmaqla dini qorudular, haqq yolunu hifz etdilər. İmam Rzadan sonra düşmənləri anladı ki, Əhli-beyt imamları istənilən hiylə və həmləyə çarə tapırlar və ondan sonrakı Allah hüccətlərini təqib, təzyiq, nəzarətdə saxlamaq və ilk fürsətdə qətl etmək planını işə saldılar. Məhz buna görə idi ki, İmam Rzadan sonrakı məzum imamlar qısa ömür yaşadılar, onlara yaxınlaşmaq, hətta adi söz soruşmaq belə qadağan idi. Bu  hiylələri də nəhayətdə zühurla məhv oldu. Əlbəttə bunlar hələ sonra olacaqdı, hələlik isə Peyğəmbərin vəfatı və həmin ərəfədəki təhlükədən danışaq.

**İslam Peyğəmbərinin dünyadan köçməsinə “vəfat” və ya şəhadət”**

deyək, hansı doğrudur? Bu suala cavab budur ki, əslində hər iki ifadə doğrudur. Çünki “Peyğəmbərlər bu dünyadan yalnız qılınc yarası və ya zəhərin təsiri ilə gedərlər” məzmunlu hədislər kifayət qədərdir. Bundan əlavə İslam Peyğəmbəri özü də vəfatına səbəb olan ağır xəstəlik haqqında “bu xəstəlik Xeybərdə o qadının hazırlayıb verdiyi zəhərli yeməyin nəticəsidir” deyə buyurmuşdu. Bu deyim təqribən ömrünün axırıncı həftəsində, yataqda olduğu zamana təsadüf edir. İmam Cəfər Sadiq də bu hədisi nəql edib. Məlumdur ki, Hicrətin 7-ci ilində Xeybər yəhudiləri ilə baş verən “Xeybər” savaşında onu zəhərləmək məqsədilə müsəlmanlığı “qəbul etmiş” bir yəhudi qadın - Zeynəb bint Harisin hazırladığı yeməyə zəhər qatmışdı. Peyğəmbər həmin qidadan bir-iki loğma yemiş və ya ceynəmiş, ondan sonra dərhal zəhər olduğunu anlamış və qidanı ağzıından çıxarmışdı. Peyğəmbərin süfrəsində oturan və o qidadan meyl edən bir müsəlman isə zəhərlənərək şəhadətə yetmişdi. Peyğəmbərin isə bu zəhər xəstəliyinə səbəb olmuşdu, həmin zəhər səbəbindən getdikcə zəifləyən və xəstələnən Hz. Muhəmməd elə o xəstəlik səbəbindən dünyadan köçmüşdür. Qadın dindirilmədə özü də bunu etiraf etmiş və Xeybər savaşında öldürülən atası Haris bin Xalid və əri Səlam bin Müşkəmin qisasını almaq məqsədilə belə bir addımı atdığını bildirmişdi.

Bu qadının qardaşı da şair cəngavər Mərhəb bin Haris idi, elə Xeybər döyüşündə Hz. Əli tərəfindən qətlə yetirilir. Ən maraqlısı, Peyğəmbər o qadını əfv eyləmişdi. Təbii ki qadın bunu Xeybər yəhudilərinin təhriki ilə etmişdi, bunda şübhə yoxdur. Qeyd etdiyim kimi sonralar İmam Cəfər Sadiq də Pyğəmbərin vəfatının səbəbi kimi bu hadisəni və Peyğəmbərin dilindən olan rəvayəti misal çəkmişdi. Bundan əlavə o Həzərət başqa bir hədisdə " Peyğəmbərlər və imamlar yalnız şəhid olaraq dünyadan gedərlər" deyə buyurmuşdu. Bu baxımdan İslam Peyğəmbəri də digər peyğəmbərlər və imamlar kimi şəhadətə yetmişdi, sadəcə bu prosses iki ildən çox müddətdə həyata keçdiyi üçün buna vəfat deyildi və elə bu cür də yaddda qaldı. Əslində vəfat da, şəhadət də bu dünyadan köçməkdən xəbər verir. Biri sırf xəbər verir, digəri isə bu dünyadan köçmənin səbəbini də özündə daşıyır. "Vəfat edib" və ya "ölüb" dediyimiz insanların şəhid edilmədiyi demək deyil. Hər şəhadət bir vəfat və ölümdür. Biz bu məslədə dayanmayacayıq və biz əsasən Peyğəmbərin vəfatı ərəfəsində - əvvəl və sonra baş verən önəmli hadisələri diqqət verəcəyik.

**Hiccətül-vida**

Peyğəmbərin ömründə iştirak etdiyi ilk və son Həcc mərasimi idi ki, Hicrətin 10-cu ilində baş tutdu. Ümumiyyətlə Peyğəmbərin ömrünün mühüm hadisələrinə diqqət etsək, Mübahilə hadisəsindən sonra ən böyük yadda qalan tarixi hadisə Peyğəmbərin ilk və son vida Həccidir. Bu mərasimdə bir çox tarixi hadisələr baş verdi, bu hadisələrin bəzisi bu günə qədər mübahsə mövzusudur, bunlar fiqh, tarix, etiqad məsələlərinə daxildir. Peyğəmbər buna qədər iki dəfə Ömrə həyata keçirmişdi, biri Hicrətin 7-ci ilində, Hüdeybiyyə sülhhündən sonrakı il, digəri hicrətin 8-ci ilində Məkkənin fəthində. Bu dəfə Ömrəni Həccilə birgə həyata keçirirdi. Bu Həccin son hadisəsi isə Həccdən qayıdanlara Qədir-Xumda Peyğəmbərin son tövsiyyəsi oldu. Məhz bu Həcc mərasimindən qayıdarkən Peyğəmbərə zahirən Quranın son iki ayələri (Maidə - 67 "Təbliğ ayəsi" və Maidə - 2 "Kamilllik" ayəsi) ayrı-ayrılıqda nazil oldu. Zahirən bundan sonra Peyğəmbər cəmi 70 gün yaşadı, bəzi tarixlərə görə Mədinəyə qayədandan sonra Mübahilə hadisəsi baş verdi, bəsi tarixçilərə görə bu bir il əvvəl 9-cu ildə baş vermişdi və bununlada Həzrərt nəhayətdə bu dünya ilə vidalaşdı. Əlbəttə bu Həccdə daha iki önəmli məsələ baş vermişdi, birincisi Yəməndən qayıdan əsgərlərin İmam Əli ilə olan narazılıqları və Peyğəmbərin bu narazılığı yoluna qoyması, digəri Peyğəmbərin məşhur Ərəfə xütbəsi. Çünki, Qədir-Xum hadisəsi hər iki məsələ ilə əlaqəlidir.

**Son Həccin əhəmiyyəti**

ondan ibarət idi ki, müsəlmanlar bu Həccin İslam Peyğəmbərinin ilk Həcii olduğunu və hətta bu həccin Peyğəmbər ömrünün son Həcci olduğunu da bilirdilər, və Allahın elçisiylə birgə Həcc etmək istəyirdilər. Bundan əlavə bu Həccin maarifləndirici tərəfi də var idi və Peyğəmbər Həcc əməlinin hökmlərini bu Həccdə təkmilləşdirdi. Peyğəmbəri Əkrəm Həccdə Ərəfə günü və Qədir-Xumda söylədiyi xütbələrindən əvvəl kütləvi şəkildə olmasa da son Həccinə (“Vida Həccinə”) işarələr etmişdi və bu müsəlmanlar arasında yayılmışdı. Məhz bu səbəbdən idi ki, İslam Xilafətinin əhatə etdiyi, hətta müsəlmanların olduğu bütün ətraf məmləkətlərdən bu Həccə toplaşmışdılar. Bu Həccdə 100 000-dən çox Hacının olması dəqiq idi. Peyğəmbərin həm Ərəfə, həm Qədir-Xum xütbələrində 100 000-dən artıq Hacı iştirak edib. Bu Hacılar demək olar ki, o zamankı müsəlmanların hamısına xəbər çatdıracaq qədər idilər. Bu Həccdən hamının xəbəri var idi. Təbii ki Peyğəmbərin iştirakı ilə, Peyğəmbərin ömrünün sonunun yaxınlaşdığı xəbəri ilə və maarifləndirici cəhəti ilə bu Həcc özünə ciddi əhəmiyyət qazanmışdı. Qədir-Xum hadisəsi də həmin bu maarif məsələlərinə daxil idi.

**Peyğəmbərin nigarançılığı**

məsələsi Hiccətül-vidanın əsas mövzularındandır. Peyğəmbərin bu dünya ömrünün sonu yaxınlaşdıqca ciddi bir nigarançılığının olduğu tarixin izində tam olaraq görünür. Əgər bu sadə məsələdən ötəri olsaydı, Ümmətin rəhbəri belə narahat olmazdı. Bəlli idi ki, bu elə həmin ərəfədə Yəmənli bir müsəlmanın dindən çıxıb özünü Peyğəmbər elan etməsi narhatçlığı da deyildi, çünki İslam ümməti 23 illik İslam dininin yayımı dönəmində belə hallarla dəfələrlə qarşılaşmışdılar və yalançı peyğəmbərləri rahatça ifşa edib, məsələni həll edirdilər, bu dəfə də belə olacaqdı. Bu nigarançılıq iki dəfə rumlularla savaşa gedib, birincidə məğlub olub, ikincidə döyüşsüz bitən və üçüncü savaşa hazırlıq və onun nəticəsinə aid də deyildi, çünki Quran açıq aşkar müsəlmanlara məğlubiyyətdən sonra bizanslılara qələbə vədəsi vermişdi. Bu nigarançılıq həmin ərəfədə Peyğəmbərin canına hazırlanan sui-qəsdlərlə də bağlı deyildi. Çünki belə sui-qəsd planları peyğəmbərliyin ilk dönəmlərindən də var idi və bir Peyğəmbər heç vaxt şəhid ediləcəyindən nigaran olmaz. Bu nigaranşılıq bir sıra şəriət məsələlərinin tam açıqlanmaması ilə də əlaqəli deyildi, çünki şəriət hökünləri insanların düşüncələri formalaşdıqca mərhələli şəkildə izah olunurdu və qiyamətədək olacaq imamət mənsubları,

mənəvi rəhbərlər, dinin himayəçiləri, məsumlar bunun öhdəsindən gələcəkdilər. Peyğəmvərin nigarançılığı elə məsələdən idi ki, Ərəfə xütbəsində əhdinin-sözünün yerə düşəcəyindən ehtiyatlanıb o məsləni növbəti xütbəyə saxladı. Çünkü o ümmətin buna hazır olduğu qənaətində olsa da bəzi müsəlmanların cahilliyi hələ də qalmaqda idi, cahillər və münafiqlərin fitnəsiylə ilahi hökmün icra olunmayacağından ehtiyatlanırdı. Bunlara nəzərən dəqiq deyə builərik ki, Əli bin Əbu Talibin Peyğəmbərin canişini olması məsələsi Ərəfə xütbəsində məhz bu səbəbdən açıqlanmadı. Ona görə Həcc mərasimindən sonra "Təblig" ayəsi - "***Ey Peyğəmbər! Allah tərəfindən sənə nazil olanı (camaata) çatdır. Əgər (bunu) etməsən, onun risalətini yerinə yetirməmisən. Allah səni insanlardan (onların ehtimal edilən şərrindən) qoruyacaq. Həqiqətən, Allah (haqqı) inkar edən qövmü hidayət etməz.***" (Maidə-67) nazil oldu. Qədir-Xum adlanan yerdə, hələ hacılar yol ayrıcına çatmamış bu ilahi missiya həyata keçdi və ondan sonra "İkmalüd-din" (Kamillik) ayəsi (bəzi ehtimallara görə Quranın nazil olan son ayəsi) - "***Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim və sizə olan nemətimi (Məkkənin fəthi, İslamın mövqelərinin möhkəmlənməsi, cahiliyyət dövründəki zərərli adətlərin aradan qaldırılması və s.) tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim.***" (Maidə-3) nazil olmaqla, İslam dini təkmilləşdi və artıq bundan sonra ayə də nazil olmadı. Yenə də qeyd edirəm bir nəzər və ehtimala görə. Bəli, Peyğəmbərin narahatçılığı, nə rumlularla savaşdan, nə ona olan sui-qəsdddən, nə də peyda olan yeni yalançı peyğəmbərlərdən deyildi, bu hadisələrin hər üçün həmin O həzrətin ömrünün sonlarınadək davam etsə də o, bütün bu səddləri aşa biləcək qədər güclü bir ümmət formalaşdıra bilmişdi. Onun nigarançılıqı Qədir-Xum tövsiyyələrinin yerdə qalmasından idi ki, həm münafiqlər, həm, cahillər, həm də ümum əksəriyyətin bu məsələni dərk etməsində çətinlik yarada bilərdi. Hələ o dövrün müsəlmanlarının hamısı bu ilahi hüccət məsələsini dərk etməkdə hazır deyildi. Bu məsələ isə Peyğəmbərin öz sağlığında həll olmalı idi, digər bəzi şəriət məsələləri kimi sonradan izah edilə bilməzdi. Əlbəttə burda münafiqləri də unutmaq olmaz, Peyğəmbər onlarıda yaxşı tanıyırdı, imanı süst olanlarıda bilirdi, hələ tam kamilləşməmiş möminlər də vardı, bunlar nigarançılıq səbəbəiydi. Mühacir, Ənsar, Qüreyşin də daxilində sadaladığımız müsəlmanların hamısından az-çoz var idi. Peyğəmbərin arxayın olduğu təkcə Bəni Haşim idi, Əmisi Abbasın və əmisi oğlu, kürəkəni Əlinin himayəsində olan haşimilər.

**Qədir-Xumla İslam dini kamil oldu,**

bu məsələdə şübhə olmadığına baxmayaraq yenə bir neçə kəlmə qeyd etmək zəruridir. Ümumiyyətlə isə Qədir-Xum hadisəsi və Qurani Kərimin bu son iki ayəsi haqqında ayrıca geniş qeydlər gərəkdir ki, bu dəfə Peyğəmbərin ömrünün sonlarınndan mövzu açmışıq deyə bu mövzuda çox dayanmayacayıq. Amma qısa olaraq deyək ki, Qədir-Xum hadisəsi İslamın əbədiyyət möhürü, müsəlmanların hamiliyi, dinin qorunması, nübüvvətin bitdiyi, imamətin isə davam etdiyini bununla da İslamın kamilliyinin sübutudur. İnsanları yalnız Peyğəmbərdən sonrakı İslam maraqlandırırdi ki, o məsələ də Qədir-Xumla həll oldu. Əslində Peyğəmbəri Əkrəm İslamın ilk günlərindən başlayaraq, daha dəqiq, İslama dəvətin ilk çağlarında birinci öz əqrəbalarını İslama dəvət etdiyi (Şüəra surəsi 214) məlum toplantıdan başlayaraq dəfələrlə müxtəlif səviyyələrdə özündən sonrakı vəsisinin, Allahın vəlisinin Əli bin Əbutalib olduğunu bildirməklə İslam dininin gələcəyini müəyyən etmişdi. Qədir-Xumda belə demək olarsa bunu kütləvi şəkildə elan etməklə rəsmiləşdirdi və ilahi hökm və dinin çağırışı olduğunu bəyan elədi, ilahi vəzifəsini təkmil etdi. Məsələ Peyğəmbərin vəsisi olmaq idi ki, o ilahi təyinlə həyata keçir və Allahın vəlisini həmin məqama təyin edir. Xilafətə rəhbərlik həmin o Allah vəlisinin nəzarət və rəhbərlik edəcəyi bir sahədi. Onun ümmətə mənəvi rəhbərliyi və himayəsi, Quranı və İslamı qoruması əsas vəzifəsidir, xilafətə rəhbərliklə isə bu kamil formada həyata keçiriləcəkdi. Allahın vəlisi, Peyğəmbərin vəsisi - canişini o Həzrətin gətirdiyi  həmin dinin qurduğu hökumətin başında olmaqla öz ilahi missiyasını daha uğurla və tam həyata keçirəcəkdi. Peyğəmbərlər , imamlar Allahın hüccətlərindir, onları məxluqat seçməz, Xaliq özü məyyən edib tanıtdırar. Zatən tarixdə, Süleyman və Yusif peyğəmbərdən savayı hakimiyytələ ilahi missiyanı həyata keçirən tək Peyğəmbər Hz. Muhəmməd idi, əksər peyğəmbərlər, hətta ulul-əzam və mürsəllər hakimiyyyətsiz öz ilahi vəzifələrini həyata keçiriblər. Qədir-Xuma əməl olunmayanda imamlar onsuzda vəzifələrini icra etdilər lakin xilafətlə daha geniş və uğurlu bir yol kecərdilər, bunun faydasi isə elə ümmətə olardı və ilahi səadət yolundan daha çox faydalanılardı. Xülasə Qədir-Xum hökmünə əməl etməyənlər yalnız ümməti geriyə sala bildilər, böyük faciələrə səbəb oldular, elə bir faciə və gerilik ki, onun ağrı acısını bu günüdək çəkirik. Bu gün çoxları müsəlmanların geriliyindən danışır, bu da təbiidir, çünki bütün uğurlara baxmayaraq müsəlmanlar vahid ümmət ola bilmədilər və Peyğəmbərdən sonra parçalandılar, hətta onun ömrünün sonlarından bölündülər, Qədir-Xuma əməl etmədilər. Biz Qədir-Xuma əməl olunmayan bir İslam gördük, imaməti xilafətdən parçalanmış halda dərk etdik və bu birliyin müsəlmanlara faydasından məhrum olduq. Zatən həqiqi xilafət də Peyğəmbərdən sonra cəmi 30 il davam etdi, daha sonra əməvilər və abbasilər rəhbərliyi ilə ərəb səltənətə çevrildi.

**Peyğəmbər ordusuna qoşulmaqdan imtina edənlər,**

əslində İslam tarixində bi qara ilkə imza atdılar. 23 illlik İslam tarixində ilk dəfə idi ki, Peyğəmbərin fərman verdiyi və orduya toplanmasına əmr etdiyi, hətta ordugahın qurulduğu halda savaşa getməyə süstlük, hətta imtina edənlər oldu. O zamana qədər yəni ilk İslam müharibəsi Bədrdən bu yana hələ belə hadisə olmamışdı, istər Peyğəmbərin şəxsən iştirak etdiyi "qəzvə"lərdə, istərsədə şəxsən iştirak etmədiyi "səryə"lərdə - döyüşə çağırışlarda müsəlmanlar daim sevə-sevə iştirak edirdilər. Bu dəfə belə olmadı. Peyğəmbəri Əkrəm ömrünün sonuna 16 gün qalmış rumlularla (bizansla) savaşa oğulluğu şəhid Zeyd bin Harisənin gənc oğlu Usabə bin Zeydi ordu başçısı təyin etdi və Mədinədən kənarda ordugah qurulmasını əmr verdi. Rumlulara bir dəfə ağır məğlubiyyətə uğrayan, ikinci döyüşdən savaşsız ayrılan İslam ordusu bu dəfə Quranın vədə verdiyi qələbə savaşına toplaşmalı və yola çıxmalıydı. Usamənin təyin olunması ilə bəlli oldu ki, bu döyüşdə Peyğəmbər özü və Əli bin Əbu Talib iştirak etməyəcək. Usamə kimi 18 yaşlı bir gəncin bu qələbə ordusuna təyin olunmasının səbəbi isə: 1) Peyğəmbər daim gənclərə diqqəti vardı və istedadlı, bacarıqlı insanları önə çəkirdi. Peyğəmbər bəlli edirdi ki, üstünlük təqvada və bacarıqdadır. Yaşlılıq, peyğəmbərlə qohumluq və sair kimim məsələlər başqasının yerinə keçməsinə səbəb ola bilməz. 2) Peyğəmbər rumlularla savaşda şəhid olan Zeyd bin Harisənin oğlunu (həmin savaşda orudun birinci, ikinci və üçüncü komandanları hər üçü şəhid olmuşdu) bu savaşa komandan təyin etməklə əslində rumlulara da bir mesaj vermiş olurdu, yəni şəhadət bizi qorxutmur, əksinə bizi düşmənə qarşı daha da cəsarətləndirir, öldürdüyünüz komandanın oğlu elə komandan olaraq üzərinizə gəlir deməklə onlara meydan oxuyur. 3) Bununla Peyğəmbər Əli bin Əbu Talibin gəncliyini bəhanə gətirib onun canişinliyini qəbul etməyənlərə də bir cavab verirdi. Vaxtıylə "Evdəkiləri dəvət" ayəsinin əsasında toplanan qohumlarını İslama dəvət məclisində 10 yaşlı Əlini canişini bilən Peyğəmbərə irad tutanlara da, hətta Peyğəmbərin vəfatından sonra bu iradı dilə gətirənlərə də bir cavab oldu bu təyinat. Bütün bunları sadalayanda görürük ki, Həzrət xəstə yatağında olanda belə nübüvvət müvadiləsini, haqq yolunu davam etdirir, müsəlmanları oyadır. Amma çox təəssüf ki, müsəlmanlar oyanmadı ki, oyanmadı, hətta bəzilərində bu proses sanki davamlı olaraq bir-birinə ötürülüb bu günə qədər gəlib çatdı.

**Vəfatına sayılı günlər qalmış Peyğəmbər**

bu qısa arada belə bir ordunu qurmasına zərurət nə idi? Bu sual tarixdə dolaşan suallardandır. Cavab olaraq öncəliklə bunu deyək ki, Peyğəmbər özü Quranın vədə verdiyi qələbəni yaşamaq istəyirdi, bu Quran ayəsinin həyata keçməsini görüb dünyadan köçmək arzusundaydı,. Çünki ortada əvvəlki acı bir məğlubiyyət vardı, Peyğəmbər ikinci savaşa özü də qoşulmuşdu, lakin həmin dəfə ordular döyüşsüz ayrıldılar. Əslində ikinci savaşa özünün getməsi özü də buna işarədir ki, Peyğəmbər rumlulara qələbəni görmək istəyirdi. Bundan əlavə bu Şamı fəthi və böyük Bizansın (Şərqi Roma İmpreiyasın) ağır məğlubiyyəti olacaqdı. Əlbəttə Quranın vədəsi sözsüz ki haqq çıxdı Şərqi Roma fəth oldu, lakin hiyləgərlərin oyunu nəticəsində Peyğəmbər o günü bu dünyada sağlığında görmədi. Digər səbəb isə Peyğəmbərin vəfatıyla aktiv fazaya keçməli olan Qədir-Xumdakı ilahi göstərişin qarşısını almaq istəyən münafiqlər və onların dəstəkçisi olan cahil müsəlmanların hiylələrinin qarşısını almaq istəyirdi. Peyğəmbər agah idi, Hz. Muhəmməd onları haqq savaşa göndərməklə bu çirkin niyyətlərindən əl çəkib, böyük savaba çatmalarına bir şərait yaratmış oldu ki, bununla da Quranın göstərişi ilə Əli bin Əbu Talib öz ilahi missiyasını başlasın. Onlar bunu da dərk eləmədilər, Peyğəmbər günahlarını savabla əvəzləmə fürsəti verdi, amma onlar bu fürsətdən yararlanmayıb, günah yolunda qaldılar.

**Bü müharibəyə getməkdən boyun qaçırmağa səbəb**

münafiqlərin öz çirkin niyyətlərindən əl çəkməməsi oldu, onlar müharibə ordugahına getməkdə süstlük göstərdilər, Peyğəmbərin xəstə olduğunu və bu dünyadan köçəcəyi xəbərini yaydılar, təbii ki müsəlmanlar da Peyğəmbər dünyadan köçən ərəfədə onun yanında olmağa üstünlük verdilər. Əslində isə bununla Peyğəmbərin sözündən çıxaraq, İslam əmrinin əksinə getmiş oldular, bundan əlavə isə böyük bir tarixi cinayətə - Qədir-Xum hadisəndəki ilahi göstərişin əməl olunmamasına səbəbiyyət verdilər. Baxmayaraq ki, Peyğəmbər ömrünün son həftəsində yataqda olduğu halda belə 2 və 3 dəfə güclə özünü toparlayıb, məscidə gəldi və müsəlmanlara döyüşdən boyun qaçırmağın ağır günah olduğunu bildirdi, onları Üsamənin ordugahına getməyi tapşırdı. Təəssüf ki Peyğəmbərin sözündən çıxmalar artıq başlamışdı, müsəlmanlar bölünmüşdü və bu hadisə təqribən 100 ildən sonra İslam məzəhəblıərinin formalaşmasına bir təkan və hətta səbəb oldu. İmam Cəfər Sadiq məhz bu məsələri olduğu kimi bəyan etdiyi və o yanlış mövqeləri uzaqqlaşdırdığı üçün ona da bir məzhəb adı qoyuldu, əslində isə o dövrdə İslamın olduğu kimi göstərən yeganə şəxs idi. Xülasə, nəticə ordu tam olaraq formalaşmadı, tam formalaşmadığı üçün döyüşə getməsi yubandı,

Peyğəmbər vəfat xəbəri yayılandan sonra isə artıq ordu tamamilə dağıldı və hamı şəhərə qayıtdı.

**Peyğəmbərin kağız qələm istəyi**

və onun bu istəyinin kerçəkləşməməsi Qədir-Xum hadisəsindəki buyurduğuna, İslam ordusuna qoşulmaq göstərişinə əməl olunmadığı kimi, riayət olunmayan fərmayişlərindən oldu, burda da o Həzrətin sözü yerə düşdü. Əslində isə Peyğəmbərin sözü Allahın sözü olduğu üçün demək ki, Allaha qarşı itaətsizlik oldu. Ümmət hələ Peyğəmbər dünyada ikən canişinlik və vilayətlə bağlı sözündən çıxdılar. Bu hadisə Peyğəmbər xəstə yatağında ikən onunla görüşə gələn böyük əshablarının yanında baş verdi. Son zamanlar ara qarışdıran, Qədir-Xum və Usamənin ordusuna qoşulmamaqda israrlı olanların əksəriyəti bir yerdə Peyğəmbərin yanında olanda, Peyğəmbər onların söhbətlərindən yenə çığallıq edəcəklərimi çözdü və kağız - qələm tələb etdi və onların yanında məktub yazdıracağını bildirdi: “Kağız, qələm gətirin sizə namə qoyum gedim ki, məndən sonra yolunuzu azmayasız”. Hamı məktubun nə haqda olduğunu anlamışdı, məlum idi ki, məktub Peyğəmbərin son tovsiyyələrinə aid olacaqdı. Peyğəmbər xəstə halında onun iyadətinə gələn əshab və nüfuzlu müsəlmanları görcək ilahi göstərişinin şahidlərin yanında bir daha məktub şəkilində yazılmasını istədi və kağız - qələb tələb etdi. Qeyd etdiyim kimi, mövzu məlum idi: Peyğəmbərdən sonrakı canişinlik, ümmətə rəhbərlik və xilafət. Çünki son vida Həccindən sonra bir neçə dəfə itaətsizlik edən ümmət mənsublarının Qədir-Xumdakı ilahi göstərişə də itaətsizlik edəcəkləri artıq şübhə doğurmurdu. Lakin Peyğəmbərin bu istəyinə də etirazla cavab verdilər, Peyğəmbərin bu sözündən sonra hay-küy salıb Rəsulullahın xəstəliyinin ona üstün gəldiyini dilə gətirdilər və bu xəstəlik səbəbindən belə danışdığını, yəni nə danışdığını bilmədiyini bildirdilər. Bu isə Quranın Peyğəmbər haqqındakı ayəsini inkar etməklə yanaşı həm də ona olan ən böyük hörmətsizlik oldu. Peyğəmbərin hüzurundaca ara qarışdı, ağız deyəni-qulaq eşitmədi, kimisi xilafət məsələsində bu məktubun vacib olduğunu, digərləri isə Quran varkən başqa heç bir yazıya ehtiyac olmadığını dedi, bəziləri isə “kağız-qələmə ehtiyac yoxdur, lazım olanları bilirik dedilər”. Peyğəmbər bərk narahat oldu və onun hüzurunu tərk etmələrini istədi. Artıq israr etmədi, çünki, bu hadisədən bəlli oldu ki, onlar məktubu da bir yolla inkar edib öz məqsədlərini həyata keçirməkdə israrlı idilər. Bununla da Allaha itaətsizliklərini davam etdirdillər. Sadəcə bir tarixi fakt olaraq qeyd edirəm: Peyğəmbərdən sonra Əbu Bəkr xəlifə olan zaman, ömrünün sonlarında xəstə yatağında ikən yaxın əsahabın

hüzurunda kağız – qələm tələb etdi və Ömər bin Xəttabı özündən sonrakı xəlifə təyin etdiyini yazdı, ona əsasən də xəlifə Ömər oldu. Heç kəs də sormadı ki, axı bu xəlifəlik Əbu Bəkrin seçildiyi kimi seçkiylədisə onda niyə Öməri seçmədilər. Yox əgər Ömərin təyin edildiyi kimi təyinlədisə onda niyə Peyğəmbərin Əlini təyin etməsini qəbul etmədilər?!

**Peyğəmbərdən sonrakı xəlifə məsələsi bu günə qədər sual doğurur,**

çünki, Əli bin Əbu Talibin xilafətini qəbul etməməkdən ötrü Allahın əmrini, Peyğəmbərin göstərişini kənara qoydular, İslamda bu məsələnin açıq qaldığını və heç bir hökm olmadığını iddia etdilər, bu isə çoxlu suallar doğurur. Axı necə ola bilər ki, min bir əzabla ərsəyə gələn İslamın sonrakı taleyi haqqında Quran və Peyğəmbər heç bir açıqlama vermədən getsin və bunu ümmətin ixtiyarına buraxsın, lap elə əshabın öz seçiminə həvalə etsin. Axı qeyd etdiyimiz kimi əsahabın içərisində, günahkar, zalıb, dindən çıxan belə oldu. Axı Quran Bəqərə surəsi 124 cü ayədə aşıq aşkar Allahın əhdinin ilahi rəhbərliyin zalımlara çatmayacağını bildirir, axı Loqman surəsi 12-ci ayədə  şirk ən böyük zülm sayılır deyə qeyd edir, axı əshabın arasında qeydsiz şərtsiz hamısı İslama qədər müşrik olmuşdu, təkcə Əli bin Əbu Talibdən başqa. Axı Quranın Əhli-beyt (Təthir) ayəsinin (Əhzab surəsi - 33) kimlərə aid olduğu, nazil olma səbəbi - "Kisa" hədisi bütün kitablarda gəlib, bu o deməkdir ki, o zaman bu tam bəlli məsələ idi. Axı bunlar açıq-aşkar görünür. Axı necə ola bilər ki, İslamda Peyğəmbərdən sonrakı canişinlik məsələsi olmasın, Peyğəmbər kimlərə nə iş tapşırırdısa birini rəhbər digərini ona canişin təyin edirdi, bu istər Həbəşistana hicrət edənlərdə olsun, istər, şərşi vergiləri yığmağa göndərdiyi adamlarda olsun, istərsədə savaşa göndərdikləri arasında. Hətta Mədinədən çıxanda belə kimisə yerinə təyin edib gedirdi. Axı bunlar tarixin açıq aydın faktlarıdır. Xülasə belə cavabsız sualları davam etdirmək mümkün olsa da burda kifayətlənirik

**Təkcə Quran**

kifayət edirmi? Bu sözü deyənlər, əslində Quranı zəif bir kitab olduğunu bəyan etmiş olurlar, bundan əlavə Peyğəmbər və Əhli-beytiin hədislərini, onların İslamdakı rolunu və izini inkar etmək istəyənlərdir. Qurani Kərim həddən artıq dərin mənalı bir kitabdır, doğrudur ki, bu Qiyamətədək olacaq bir dinin tək kitabıdır, amma eyni zamanda o qədər dərin mənası var ki, əksər ayələr izaha və

şərhə ehtuyaclıdır. Həqiqətən də Quranın adi mənasına diqqət edərkən görürük ki, hər insanın maariflənəcəyi qədər yetərlidir. Lakin onun dərin mənaları var ki, onu yalnız hədislərlə izah edilə bilir, hədis deyiləndə isə ağıla dərhal Peyğəmbər və Əhli-beyt gəlir. Əhli-beytin haqqını dananlar bu yolla da onları inkar edirlər. Əslində Peyğəmbər iki ağır yük: "Quran və İtrəti sizə əmanət qoyub gedirəm" deyəndə elə bunun mənası Quran və hədisdir. Bir zamanlar hədis söylənilməsini qadağan edən Əməvi və Abbasi xəlifələri məhz Əhli-beyti unutdurmaq üçün bu yola əl atdılar və bu siyasəti həyata keçirdilər. Hədis kənara qoyuldusa din naqis qalır. Odur ki, hədislərə aid, yəni doğru və yanlış hədisləri ayırd etmək üçün bir neçə elm ərsəyə gəlib. Yəni "Quran kifayət edir" Quranı əzəmətli sandığları üçün deyil, Əhli-beytin əzəmətini inkar etdikləri üçün ortaya atılan bir şüardlır. Zatən hədislər məna baxımılndan Quranı inkar edirsə o hədisin saxta olduğuna bir işarədir. "Quran kifayət edir" əslində dindən sui istifadə etmək istəyənlərin, dini təhrif etmə həvəsində olanların kəlamıdır. Onlar özləri də yaxşı bilirlər ki, Quran Peyğəmbər kəlamları ilə birgə İslam deməkdir. Quranın buyurduğuna əsasən Peyğəmbərin bütün danışdıqları, hətta etdikləri və təsdiqi belə vəhyə əsasəndir və dindir. "O (Muhəmməd) həva-həvəsdən danışmır. Məgər o (danışdıqları) ona edilən vəhydir." (Nəcm surəsi, ayə 3, 4) Hədisi inkar edənlər həqiqətdə Quranı inkar etmiş olurlar. Bununla da öz istədikləri kimi dini dəyişdirmək məqsədləri güdürlər. Bu fikirlər tarixdə ilk dəfə Müaviyəyə məxsus olub və o yalnız Quran deyib, hədisləri və hədislərə əsasən Quran təfsirini qadağan edib. Əməvi xəlifəsi olduğu zaman Mədinə səfərində ona casusları tərəfindən Abdullah bin Abbasın Quran dərsləri keçdiyini və izahında hədislər söylədiyini bildirirlər. Müaviyə böyük əshab, hədisçi, alim Abdullah bin Abbası yanına dəvət edir və ona deyir: "Eşitmişəm Quran dərsləri deyirsən və ayələri hədislərlə təfsir edirsən?" Bin Abbasdan müsbət cavab alandan sonra on deyir: "Bin Abbas Quran de, ayələrini də de, amma hədis söyləmə, hədislə təfsir demə." Bu bir hədə idi. Əlbəttə bu qadağa Müaviyə vali olandan və sonradan Əməvi xəlifəsi olandan var idi, lakin nüfuzlu Haşimi övladı Abdullahın buna əməl etməməsi onu narahat edir və əlavə bir daha onu hədələyir.

**Peyğəmbərin əshabları**

haqda müzakirə olunan mövzulardan biri də onların etdiklərinin hamısının doğru olmasıdır. Çünki çox təəssüflər olsun ki, əshabı digər insanlardan üstün bilənlər, onları Peyğəmbər Əhli-beytindən də üstün bilirlər və məhz buna görə məsumluğu inkar edirlər. Ən maraqlısı isə məsumların ismətini inkar edənlər, əshabın bütün

əməllərini doğru sayırlar. Hal bu ki, məsumlardan İmam Əli, Fatimeyi Zəhra, İmam Həsən, İmam Hüseyn Peyğəmbərin yaxın qohumları olmaqla yanaşı, ismətləri Quranda bəyan olmaqla yanaşı həm də elə əshab idilər, sadəcə əshablıq onlraın məqamlarının yanında çox kiçikdir. Quranın məntiqiylə isə insanlar arasında üstünlük yalnız  təqva, Allaha bağlılıqdadır, əshab olmaqla deyil. Allahın əhdinin – yəni ilahi missiyanı icra edən şəxslərin isə həyatında heç vaxt günah etməməsi ilahi şərt kimi görünür. Peyğəmbəri görmək, onunla həmneşin olmaq ən savablı əməllərdən olsada, bu həmin insanların ömrlərinin sonuna qədər yanlış etməyəcəkləri anlamına gəlməz. Bu məsələ yalnız məsumlar üçün keçərlidir, yalnız onlar ömürlərində heç vaxt günah etməzlər ki, bu da Allahın seçdiyi elçilərinə və vəlilərinə aiddir. Peyğəmbərlərdə və imamlarda ismət məqamını inkar edənlər yalnız və yalnız öz lider bilidiyi günahkarlarına haqq qazandırmaq üçün bu yola əl atırlar. Elə "Ulul-əmr" ayəsini səltənət sahiblərinə aid edib, yayanlar da bu qəbildəndirlər. Məsum imama aid olan ayəni öz padşahlarına və sultanlarına aid edib, onların zülmünü ilahi hökm kimi təbliğ etməklə insanları yanlışlığa çəkirlər. Əshab Peyğəmbərin zamanında yaşayıb onu görən müsəlmanlara deyilir, istər hər gün onun yaxınında olsunlar, namazında və xütbəsində iştirak etsinlər, istərsə də bunu nadir zamanlarda etsin, amma əsas odur onun zamanında yaşayıb onu görsün. Hətta Peyğəmbərin yaxınlarında olan müsəlmanların yəni əshabın içərisindən, Quran katiblərindən, hədis söyləyənlərdən belə günahkar, zülm edən, hətta dindən çıxanlar olmuşdur.

**Peyğəmbərimizin qızı Fatimeyi Zəhra**

haqqında mütləq söz açmaq lazımdır çünki, Peyğəmbərin hiccətül-vidadan sonrakı həyatında və o Həzrətin vəfatından sonrakı dönəmdə, müxtəlif rəvayətlərə görə 40 gün - 6 ay arası tarixdə bu Xanımın ilahi missiyası çox böyük və önəmli olmuşdur. Odur ki, həmin dönəmdə Xanımın həyatı mütləq araşdırılmalıdır. Əlbəttə bunu da qeyd edək ki Fatimeyi Zəhra ən bərəkətli ömürə sahib olmuşdur. Cəmi 18 il yaşayan bu ülvi qadın, Peyğəmbərin qızı olmasına baxmayaraq Ona analıq etmiş, İmamların anası olmuş, Peyğəmbər nəsli onunla bu günə qədər davam etmiş, İslamın ilk Vilayət mübarizəsinin bayrağını qaldırmış, dinin bu yolda ilk şəhidəsi olmuş, dünya qadınlaraına nümunə olmuş, axirət qadınlarının sərvəri olmuş, "Kitabi Fatimə" adlı bir əsər miras qoymuşdur. Peyğəmbərin qızı, İmam Əlinin həyat yoldaşı, İmam Həsən, İmam Hüseyn, Zeynəb, Ümmi Gülsüm və Muhsinin anası olmuşdur, bununla belə cəmi 18 il yaşamışdır, uşaq yaşlarından anasını itirmişdir. Tarixdə ikinci belə bir bərəkətli ömür sürən qadın olmamışdır. Amma

qısa olaraq onu deyək ki, bu 18 il ömrün Peyğəmbərdən sonrakı hissəsi qısa da olsa yeni bir tarixdi və Xanım Zəhranı başqa bir ilahi tərəfdən tanıtdırır. Bu Xanım, atası yataqa düşəndən bu dünyadan köçüb dəfn olunanadək, atasının dəfnindən Əli (ə)-dan beyət alınana və qapısı yandırılanadək, Fədək əlindən alınandan hadisənin sonunadək və özü ölüm yatağında olandan bu dünyadan köçənədək, bu dörd mərhələdə böyük bir mücadilə və mübarizə sürdürdü, mübarizəsinin aləti göz yaşı və kəlamları idi. Bu bir haqq mücadiləsi idi, bu bir din savaşıydı, bu bir vilayət qiyamı idi. Bu qiyamın tək şəhidi isə özü oldu. Belə qənaətə gəlinir ki, Fatimeyi Zəhra bu dünyanın tanınmayıb dünyadan gedən tək məsum idi, qəbrinin bu günə qədər gizlin qalması da elə onun tanınmamasına görədir. Özünü tanıya bilmədikcə, qəbrini də tanımaq nəsib olmur. O Allahın böyük bir sirri idi. Bu Xanım haqqında araşdırmamızda "Günəşin  Usanması"nda, bu mövzuları ayrıca geniş qeyd etmişik. Qədir-Xumu müdafiə edən, Hz. Əlinin haqq xəlifə olduğunu, Allahın əmri Peyğəmbərin göstərişi ilə Qədir-Xumda bu məqama rəsmiləşdiyini elan etdi, hələ Peyğəmbərin cənazəsi dəfn olunmadan tələm-tələsik xəlifə seçənləri haqq yolda olmadıqlarına etiraz bayrağı qaldırdı Fatimeyi Zəhra. Bu üzdən başına müsibətlər gəldi və nəhayətdə bu səbəbdən dünyadan köçdü.

**Peyğəmbərin vəsiyyəti**

Peyğəmbərin vəsiyyəti üç mövzunu özündə əhatə edirdi, bunlardan biri qullarla xoş rəftar olmaq, onlara yaxşı baxmaq, özünüzdən ayırıb fərqləndirməmək və unutmamaq ki, ən üstün əməllərdən biri də onları azad etməkdi. İslam dini ilk günlərindən mərhələli şəkildə insan haqqlarını müdafiə edib, hüquq və azadlıqlarına çalışıb. O zamanın ən böyük insanlıq faciəsi olan quldarlığın aradan aparılmasına səy edib və iki istiqamətdə bu özünü göstərib, birincisi qullarla yaxşı rəftar etmək, həttta heç bir sahədə özünüzdən ayırmamaq, onları azad insanlardan fərqləndirməmək. İkincisi onları azad etməyin ən üstün əməllərdən olduğunu bəyan etmək. Bu əməl hətta ibadətə tən tutulur və ibadətin kəffarəsi olduğu da fiqhdə məşhurdur. Vəsiyyətinin ikinci mövzusu isə Əli əleyhis-salamdan olan rəvayətə görə namazı tapşırmasıdır. Əslində bu bütün ilahi elçilərin və hüccətlərin son sözüdür. Çünki namaz Allah qarşısındakı bəndəliyin son həddi, iman nişanəsidir. Allah yanında əgər namaz varsa, digər əməllərdə var sayılır, bir adamın namazı yoxdursa o  şəxsin digər əməlləridə Allah yanında yox sayılır, çünki namaz bəndəlik və Allaha təslimiyyət nişanəsidir. İslam dinində bu məsələ bu cür bəyan olunub. Digər üçüncü vəsiyyəti isə bizim müzakirə etdiyimiz mövzudur ondan sonra yollarını azmamaları, Peyğəmbərin tövsiyyələrinə itaət

etməyə çağırış. Peyğəmbər ömrünün sonlarında bu məsələni bri neçə dəfə israrla bəyan etdi, çünki gedişatdan görürdü ki, Qədir - Xumdakı o ilahi təyinat və Peyğəmbərdən sonrakı canişinlik bir çoxlarının xoşuna gəlməmişdi və onlar avam və cahil müsəlmanalrı bu məsələdə itaətsizliyə çağırırdılar və Üsamənin ordugahına getməməkdə əslində bu səbədən idi ki, Əli əleyhissəlamı xilafətdən uzaqlaşdırsınlar, çünki orduya qoşulsaydılar, bu işi əngəlləyə bilməzdilər. Peyğəmbər bu itaətsizlikləri hiss etdiyi üçün onları Peyğəmbərin sözündən çıxmamağa çağırırdı və vəsiyyətinin əsasını bu təşkil edirdi, çünki bu Allahın əmriydi, Allahın əmrindən çıxmaq günahdır, xüsusilə bu məsələ isə bir başa İslamın və ümmətin gələcəyi ilə bağlıydı. Qədir-Xum hadisəsindəki əmrə itaətsizlik, təkcə günah deyil, eyni zamanda Peyğəmbərə, Qurana və dinə xəyanət idi, bu İslamı təhlükəyə atmaq anlamında gəlirdi. Peyğəmbərin sözündən çıxmağın gələcəkdə çox acı nəticələri ola birlərdi və necə də ki, oldu.  Peyğəmbər hələ yataqda olarkən parçalanma, cənazəsi hələ dəfn olunmamış ixtilaf, daha sonra qarşıdurma yarandı. Peyğəmbərin zamanında müsəlmanlar içərisində "qulat" və "buğat" kimi cərəyanlar yaranmışdısa, Peyğəmbərdən sonra raşidi xəlifələr zamanında "xəvaric" və "mürciə" cərəyanları yarandı, əslində bunlar elə o zamanın məzhəbləri idi. Əməvilərin hakimiyyətə gəlməsi, xüsusilə Müaviyə və Yezid dönəmində belə yanlış cərəyanlar artdı, Abbasilər hakimiyyətə gəlməsilə isə artıq məzhəbçilik pik həddə çatdı, Bütün bu cərəyanlar müxtəlif şəkillərdə bu günə qədər qalıb. Bunların baş səbəbi isə həmin Peyğəmbərin sözündən sapmalar oldu.

## Vəfatdan dərhal sonra gerçəkləşən xəyanət

İslam tarixinin acı bir səhifəsidir. Həzrətin cənazəsi hələ evində ikən mühacir və ənsar, Səqifədə (eyvan atında) toplaşıb, Peğəmbərin yerinə canişin təyin etdilər. Sanki 72 gün əvvəl Qədir – Xumda Peyğəmbərin ilahi əmrə əsasən Əlini yerinə canişin təyin etdiyində Əliyə təbrik deyənlər bunlar deyildilər?! Sanki Qurani Kərimin Əhılibeyt haqqında olan vilayət və fəzilət ayələrindən xəbərsiz idilər?! Sanki 23 illik peyğəmbərlik dönəmində Rəsuli Əkrəmin Əli və Fatimə, onların ailəsi haqqında dediklərindən qafil idilər?! Sanki İslamın əvvəl günündən o günə qədər heç kəsin həll edə bilmədiyi müşkülləri Peyğəmbər Əlinin vasitəsiylə rəf etmirdi?! Əlbəttə bunu deyək ki, Səqifeyi Bəni Saidəyə ilk olaraq Ənsar cəm olmuşdu və məşhur Xəzrəc qəbiləsinin rəhbəri Səəd bin Übadə xəstə halıyla məclisə rəhbərlik edirdi, sonra mühacirdən Əbu Übeydei Cərrah və digər məlum iki şəxs gəldi. Yəni şəxsi araşdırmalarıma görə Səqifədə 12 ya 13 ya 14 nəfər mühacir və Ənsar iştirak edib. Onlardan 3 ya 4 ya maksimum 5 nəfəri mühacir

olub. Peyğəmbərin əsas dəstəkçilrəindən olan Ənsarın orda toplantı keçirməsinin əsas səbəbi isə bu idi ki, onlar Qüreyşin (məkkəlilərin) Əlininin xilafətinə mane olacaqlarını ehtimal edir və bundan ehtiyatlanırdılar. Fəthi Məkkədən sonra Qüreyşlə araları soyuq olduğundan və bunun ənsarlara ağır başa gələcəyindən qorxurdular, odur ki, rəhbəri Ənsardan seçmək istəyirdilər. Yəni məlum olan budur ki, münafiqlərin fitnəsi olmasaydı, Səqifə də olmazdı. Hələ bu da var ki, Ənsar ora heç olmasa Mədinəyə rəhbər təyin etmək üçün yığışmışdı, sonradan gələnlər işi xəlifə seçiminə apardılar. Xülasə Peyğəmbər 28 səfərdə dünyadan köçdü, elə həmin gün Səqifədə bu hadisə baş verdi və bir neçə nəfər iştirak edən Əbu Bəkrə beyət etdi, 29 Səfərdə kütləvi beyət aldılar və ilk olaraq cəmi 12 ya 13 ya 14 nəfər beyət etmədi. Rəbiül-əvvəlin birində Əli əleyhis-salam dəfnə hazırlıq işlərini bitirdi və əmisi Abbasın iştirakı ilə Fəzl bin Abbasla birgə qüsl verdiyi Peyğəmbəri dəfn etdi. Hadisənin faciəvi tərəfi elə budur ki, Səqifə iştirakçıları bütün olanları bildikləri halda, həqiqətin gün kimi aydın olduğu bir vaxtda yanlış yolu tutdular. Əgər haqq yoldaydılarsa niyə bu işi tələm-tələsik etdilər, hələ Peyğəmbərin cənazəsi yerdəykən?! Bununla da bütövlükdə İslam dinini təhrif edə bilməsələr də, onun inkşafına, ümmətin irəliləməsinə, bu Allah yoluna elə bir zərbə vurdular ki, böyük müsibətlərə yol açmış oldular. Hətta bu günə qədər müsəlmanların ixtilafda olmasına, parçalanmasına, geriləməsinə səbəb axtarsaq, Səqifədə baş verən hadisə öndə durur. Müsəlmanlar bu günə qədər Peyğəmbərin Allahın əmriylə Qədir-Xumda buyurduğu göstərişinin yerə düşməsindən əziyyət çəkirlər. Çünki Qədir - Xum hadisəsi və oradakı ilahi göstəriş adi İslam hökmlərindən fərqliydi, bu məsələ ümmətin birliyi, gələcəyi, inkişafı demək idi. Təbii ki, İslam dini qaldı və qalacaq, Quran təhrif olunmadı və olunmayacaq amma müsəlmanlar daha çox uğur əldə edə bilərdi, ki, bəşəriyyət tam olaraq və olduğu kimi bu dindən faydalansın. Bəli, Fatimeyi Zəhranın ömrünün sonlarında Peyğəmbərin vəfatından sonra baş verən ilk hadisə - Səqifə haqqında dediyi kimi oldu, O Həzrət belə buyurmuşdu: “Səqifədə Peyğəmbərin göstərişindən çıxdılar, bunun ziyanı gələcəkdə İslama olacaq.” Elə də oldu, bu günə qədər İslamın, hətta bəşəriyyətin mənəvi baxımdan dalana dirənməsində, haqq yol sayılan İslam ardıcıllarının geriləməsində sözsüz ki, Qədir-Xuma əməl olunmaması səbəb kimi durur. Əlbəttə bunların hamısı sonra olacaqdı, Peyğəmbərin vəfatından sonra...

**Peyğəmbərin cismi isə bu dünyaya vida etdi**

əslində bu bir nurun vidasıydı. Bu vidadan sonra nə baş verəcəkdisə Peyğəmbər onun da tədbirini görmüşdü, Əliyə vəsiyyətini etmişdi, başına hər nə müsibət gələcəksə İslam dininin və ümmətin qorunması üçün səbr etmək zərurətdir, bu dəfə din və ümmət zəmanı imamının səbri ilə qorunacaqdı. Əlbəttə çox ağır oldu o

müsibətlər, Əlinin gözləri qarşısında Fatimeyi Zəhranın ölümünə səbəb olacaq hadisədə var idi bu müsibətlər içində, Əli bu din yaşasın deyə, ümmət üçün səadət yolu qapanmasın deyə səbr etməliydi. Bu din əmanəti Fatimüyi Zəhranın şəhadətə yetməsiylə bizə çatıb, Peyğəmbər isə Hicrətin 11-ci ili, Səfər ayının 28 də mübarək başı Əlinin sinəsi üstə bu dünyadan köçdü. O dünyadan gələndə Allah rəhmət qapılarını bəşəriyyətin üzünə açdı, o dünyadan gedəndə isə Hicazdan rəhmət nuru dünyanı bürümüşdü, Qiyamətədək bu nur sönməyəcək, hər nə qədər nazilsədə, üzülməyəcək. Nəhayətdə Qaim tam olaraq dünyanı ədalətə dolduracaq, Allahın Adəm övladlarına verdiyi vədə tamamlanacaq, mütləq tamamlanacaq.

**Bakı- 2022**